

# Ölümsüz qəhrəman

*Yol verin siz, ey insanlar,*
*Bura cəsur, igid gəlir.*
*Vətən üçün canın verən*
*Qəhrəman bir şəhid gəlir.*

Məmmədli Elxan Ələkbər oğlu 13 oktyabr 1997-ci ildə İsmayıllı rayonunun Zoğallıq kəndində anadan olub. O, Ələkbər Məmmədov və Zümrüd Məmmədovanın iki övladından biri idi. Ailənin yeganə oğul övladı olan Elxanın özündən böyük Günay adlı bacısı var.

*Ailənin tək nişanəsi,*
*Xalqımızın məğrur səsi,*
*Könüllərin qəm nəğməsi*
*Elxan kimi zabit gəlir.*

Elxan Məmmədli 2004-cü ildə Bakı şəhəri Suraxanı rayonu Pərviz İsmayılov adına 278 saylı tam orta məktəbin birinci sinfinə gedib. 2015-ci ildə həmin məktəbin 11-ci sinfini nümunəvi qiymətlərlə bitirib. Orta məktəbdə oxuduğu illər ərzində hər kəsin sevimlisinə çevrilib, müəllim və şagird kollektivinin hörmətini qazanıb. Məktəbi bitirdikdən sonra Bakı Biznes Universitetinin Dövlət və Bələdiyyə İdarəetməsi fakültəsinə qəbul olub, 2019-cu ildə oranı bitirib. Həmin il İsmayıllı rayon hərbi komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. O, Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən N saylı hərbi hissəsində xidmət edib. Ağlı, tərbiyəsi, nizam-intizamı ilə fərqlənən Elxan komandirlərin və yoldaşlarının sevgisini qazanıb. Ordudan tərxis olunduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində «Ehtiyat zabit hazırlığı» kursu keçib. Kursu müvəffəqiyyətlə başa vuraraq leytenant hərbi rütbəsi alıb. O, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Quru Qoşunlarının Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətə başlayıb. Xocalı, Şuşa, Xankəndi və Qubadlının ətraf ərazilərində MAHHXHQ kimi xidmətini davam etdirib. Xidməti zamanı əldə etdiyi nailiyyətlərə görə 10 fevral 2022-ci ildə komandanlıq tərəfindən fəxri fərmanla təltif edilib. Daha sonra - 15 may 2023-cü ildən 29 iyul 2023-cü ilə kimi «Komando» Dağ Təlimi



Mərkəzində keçirilmiş 17-ci qəbul «Komando başlanğıc kursu»nu müvəffəqiyyətlə başa vurub, «Komando» Dağ Təlimi Mərkəzinin komandanlığı tərəfindən sertifikata layiq görülüb. Elxan kəşfiyyat komandiri vəzifəsində çalışıb.

19 sentyabr 2023-cü ildə Qarabağda başlanan lokal xarakterli antiterror əməliyyatları zamanı kəşfiyyat komandiri olaraq döyüşə qatılıb, öndə gedərək torpaqlarımızın terrorçulardan azad edilməsində şücaət göstərib. Həmin gün - sentyabrın 19-da Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Nəşi sentyabrın 21-də İsmayıllı rayonuna gətirilərək Zoğallıq kənd qəbiristanlığında torpağa tapşırılıb. Şəhidin dəfn mərasimində İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov başda olmaqla vəzifəli şəxslər, nümayəndə heyəti, rayonun hərbi komissarlığı, rayon ictimaiyyəti iştirak edib.

Bacısı Günay Elxan haqqında xatirələrini danışarkən göz yaşlarını saxlaya bilmədi:

- Uşaqlıqdan qardaşımla bir yerdə oynadıq, bir böyüdük, xoş xatırlanası günlərimiz çoxdur. Bir-birimizi çox istəyirdik. Mən Elxandan böyük olduğum üçün onu körpə uşaq kimi bəsləyir, nazını çəkirdim. Elxan anamızı çox istəyirdi. Onun qayğısına qalırdı. Anam Dövlət Sərhəd Xidmətinin Hərbi Hospitalında işləyir. Bir gün qardaşım işdən məzuniyyətə gəlmişdi. Evdə qaldığı müddətdə hər gün anamı işdən özü gətirirdi... Onsuz çox darıxırıq. Son dəfə sentyabrın 19-da - şəhid olmamışdan bir az əvvəl anamla telefon vasitəsilə əlaqə saxlamışdı. Anam dedi ki, özündən muğayat ol, ehtiyatı əldən vermə. Qardaşım isə - ağlama, ana, hər şey yaxşı olacaq, - deyə onu sakitləşdirdi. Elə sonuncu şəklini də anama göndərmişdi. Demişdi ki, hələ paylaşma, vaxtı var. Sanki şəhid olacağını bilirmiş. Döyüşə gedəndə hamıdan, bütün doğmalardan halallıq almışdı. Elxanın atası Ələkbər Məmmədovun dedikləri:

- Oğlum vətənpərvər, fədakar, ailəcanlı bir oğul idi. Mən oğlumla fəxr edirəm. Onunla qürur duyuram. O, Vətən uğrunda şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə can sağlığı versin. Özümüzə isə səbr arzulayıram...

**Vəsidə Mustafaqızı**